Hürriyyət

14 №12 (3351) 8 Aprel / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru

# Ana dili duası

Ulులardan ulu Tanrım,
Dua edib yalvarırım,
Sənsən ümid, son pənahım
Təəssüflə, yana-yana
Baxıb xalqın bu halına -
Manqurt, kölə, qullarına.
Öz dilini bəyənməyib
Yad bir dili tərifləyib,
Sırıyaraq öz xalqına
Özün xoşbəxt sayır nadan!
Ulu Tanrı, ey Yaradan
Beləsinə ver ki, ağıl.
İnsansifət şeytan olub
Çıxartmasın xalqı yoldan!
Ulu Tanrım, ey Yaradan
Bu bəndənə de ki, - Ayıl!
Dillərin ən qədimini,
Zənginini, şirinini,
Qəşəngini, incəsini
Bəxş etmişəm Türk xalqına,
Şükr etməyir Tanrısına!
Görünür ki, körpə ikən,
Anasının qucağında
Olub onun laylası da
Yad bir dildə, lisanında.
Köləliyə vurğunluğu
Vardır onun mayasında!
Anası da, atası da
Köləliyin buxovunu
Hələ tamam qırmayıbdır,
Azad insan olduğunu
Dərk eləyib qanmayıbdır!
Ucalardan uca Tanrım,
Dua edib yalvarırım: -
Elə et ki, bundan sonra
Bu tip, sayaq adamlar da,
Öz dilinin gözəlliyin,
Şirinliyin, zənginliyin
Başa düşüb dərk eləsin!
Dil bir xalqın kimliyinin
Vəsiqəsi, simgəsidir!
Ana dilə laqeydliyin,
Dərk etmədən kiçiltməyin,
Özgə dili yüksəltməyin -
Öz xalqına qəsd etməyin
İlk addımı pilləsidir!
Zaman-zaman gələcəkdə
Öz dilinin, kimliyinin
Özgə dilin mədəsində
Əriməsi, itməsidir!
Ululardan ulu Tanrım,
Dua edib yalvarırım: -
Bu sevdaya düşənləri,
Dəbə, küyə gedənləri
İslah et ki, bundan belə
Candan sevib öz dilini
Övladların gülə-gülə
Ana dili məktəbinə
Usanmadan göndərsinlər,
İstədiyi yad dilləri
Hər bir zaman öyrətsinlər!

*Mir Yəhya Yusifli*
*22.03.2025*